UOT 33.3

*Orman Təminxa oğlu ABDİNOV*
*Azərbaycan Dövlət İqtisad Universiteti,*
*doktorant*
*E-poçt: orman.abdinov@yahoo.com*

# DAYANIQLI İNKİŞAFIN TƏMİN EDİLMƏSİNDƏ DÜNYA TƏCRÜBƏSİ

*Xülasə*

**Tədqiqatın məqsədi-**Dünyanın bir neçə ölkəsində dayanıqlı inkişafın təmin edilməsinin qabaqcıl təcrübəsinin öyrənilməsindən ibarətdir.

**Tədqiqatın metodologiyası-**Təcrübəsi öyrənilən ölkələrdə dayanıqlı inkişafın təmin edilməsi üsullarının öyrənilməsi, onların elmi ümumiləşdirilməsi.

**Tədqiqatın tətbiqi əhəmiyyəti-**Tədqiqatın nəticəsində əldə edilmiş müsbət meyillərin gələcəkdə respublikamızın iqtisadiyyatında tətbiq olunması vasitəsilə dayanıqlı inkişafın təmin olunma prosesinin sürətləndirilməsindən ibarətdir.

**Tədqiqatın nəticələri-**Dayanıqlı inkişafın təmin olunması istiqamətində təklif edilən müsbət meyillər respublika iqtisadiyyatında qeyd edilən prosesə yüksək səviyyədə təkan verəcək, dinamik inkişafı sürətləndirəcəkdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi-**Tədqiqatda nəzərdən keçirilən məsələlər, yəni dayanıqlı inkişafın təmin edilməsində qeyd olunan ölkələrin təcrübəsinin ölkəmizin iqtisadiyyatında tətbiq olunması ilk dəfə tərəfimizdən aparılmış və əldə edilən nəticələr yenidir.

***Açar sözlər: dayanıqlı inkişaf, dünya təcrübəsi, investisiya axınları, Malayziya təcrübəsi, Norveç təcrübəsi.***

## *Giriş*

Dayanıqlı inkişaf konsepsiyasına qoşulan ölkələrin təcrübəsi göstərir ki, bu konsepsiya istənilən ölkədə iqtisadi artım modeli kimi çıxış etməklə, həm də strateji planda etibarlı inkişafı təmin edir. Məhz bu və ya digər parametrlərinə görə dayanıqlı inkişaf konsepsiyasının qarşıya qoyduğu tələblərin icra olunması bütün ölkələrin iqtisadiyyatı üçün yüksək əhəmiyyətə malikdir. İqtisadi inkişafın müasir mərhələsində dayanıqlı inkişaf iqtisadi siyasətdə prioritet kimi qəbul edilərək icra olunur. Hər bir ölkənin iqtisadiyyat strukturundan və aparılan siyasətin xüsusiyyətlərindən asılı olaraq dayanıqlı inkişaf özündə müxtəlif əlamət və fərdi parametrləri əks etdirir.

Qeyd edilən müxtəliflik və fərdilik hər bir ölkənin iqtisadiyyatının strukturundan, dayanıqlı inkişafı təmin edən sahələrin və sektorların sayından, onların inkişaf səviyyəsindən, dayanıqlı inkişafa təsir edən siyasi, iqtisadi, sosial, təşkilati, hüquqi və s. amillərin səviyyəsindən, iqtisadiyyatda aparılan institusional dəyişikliklərdən, iqtisadiyyatın restrukturizasiyası prosesindən, ölkənin strateji iqtisadi hədəflərindən və seçilmiş prioritetlərdən və s. ilə əlaqədar olur.

Sadalanan amil və parametrlərin hər birinin səviyyəsi və inkişaf dinamikası müxtəlif olduğundan, onların yaratmış olduğu meyillərin fərqli olması hər bir ölkədə dayanıqlı inkişafın fərqli parametrlərə malik olaraq ortaya çıxmasını şərtləndirir. Şərh edilən səbəbdən də dünyanın ayrı-ayrı ölkələrində dayanıqlı inkişaf təcrübəsinin öyrənilməsi zərurət yaradır [2, s. 29].

Dünya iqtisadiyyatında son dövrlərdə baş verən volatilliklər nəticəsində ayrı-ayrı ölkələr müəyyən kataklizmlərlə rastlaşırlar. Yaranan mənfi meyillərin, dinamikaya əks təsir edən səbəblərin aradan qaldırılması, dayanıqlı inkişafın təmin edilməsi üçün bu sahədə qabaqcıl təcrübəsi olan ölkələrin mövcud nümunələrinin öyrənilməsi vacibdir.

Dünya ölkələrinin təcrübəsindən məlum olur ki, dayanıqlı inkişafın təmin edilməsi təcrübəsinə malik olan çoxsaylı ölkələr mövcuddur. Sözügedən prosesin qabaqcıl təcrübəsinə malik olan ölkələrə Almaniyanı, İngiltərəni, Norveçi, İsveçi, ABŞ-ı, Kanadanı, İtaliyanı, Fransanı, Koreyanı, Yaponiyanı, Sinqapuru, Hollandiyanı, Danimarkanı, Birləşmiş Ərəb Əmirliklərini, Malayziyanı,

Türkiyəni və s. aid etmək olar. Qeyd edilən ölkələrdən daha qabaqcıl təcrübəyə malik olan bir neçəsinin timsalında dayanıqlı inkişafın təmin edilməsi məsələlərinin öyrənilməsi vacibdir.

**Dayanıqlı inkişafın təmin edilməsinin Malayziya təcrübəsi**

Bu ölkə 1957-ci ildə Böyük Britaniyanın müstəmləkələrindən xilas olmuşdur. Həmin ildən başlayaraq Malayziya özünün müstəqil iqtisadi siyasətini yeritməyə başlamış və tarixən qısa müddət ərzində uğurlar əldə etmişdir. Bu ölkənin iqtisadiyyatını xarakterizə edən ən mühüm cəhətlərdən biri ondan ibarət olmuşdur ki, burada iqtisadiyyatın diversifikasiyası əsas prioritet kimi qəbul olunmuşdur. Buna səbəb isə iqtisadiyyatın tamamilə asılı olduğu neft və qaz məhsullarının, həmçinin qalay və kauçukun asılılığından azad olunmanın əsas məqsəd kimi qarşıya qoyulması olmuşdur.

Ölkədə aparılan diversifikasiya siyasəti dayanıqlı inkişafın təmin edilməsinin əsası, təməli kimi qəbul olunmuşdur. Elə bu əsasda da ilkin prosesə ölkədə infrastrukturun yaradılması ilə start verilmişdir [1, s. 42].

İqtisadiyyatında dayanıqlığın təmin edilməsi təcrübəsi öyrənilən Malayziyanın ən güclü inkişaf dövrü 1970-1990-cı illərdə olmuşdur. Bu illər ərzində ölkədə iqtisadiyyatın bütün sahələrində əsaslı struktur dəyişiklikləri reallaşdırılmışdır. Qeyd edilən dövr ərzində Asiyanı bürümüş böhran xeyli sayda ciddi problemlər yaratmışdır. Həmin problemlər Malayziyaya da öz təsirini göstərmişdir. Dayanıqlı inkişafın təmin edilməsi məqsədi ilə həyata keçirilən tədbirlər bu ölkədə uğurlu nəticələrin əldə olunmasına səbəb olmuşdur.

Malayziyada dayanıqlı inkişafın təmin edilməsində istifadə edilən diversifikasiya prosesləri ilkin olaraq iki mühüm istiqamət üzrə reallaşdırılmışdır. Bu istiqamətlərdən birincisi kənd təsərrüfatı sahəsində yaradılmışdır. Bunun mahiyyəti ondan ibarətdir ki, əsas diqqət əvvəllər olduğu kimi kauçukun istehsalına deyil, palma yağının istehsalının artırılmasına və bu mənşəli məhsul istehsalının genişləndirilərək ixraca yönəldilməsinə ayrılırdı. Bu istiqamət Malayziyanın kənd təsərrüfatında sürətli inkişafa və fəaliyyətin genişlənməsinə səbəb olmuşdur. Dayanıqlı inkişafa təsir edən ikinci istiqamət isə ilkin məhsul istehsalı ilə məşğul olan sahələrin inkişaf etdirilərək, təkmilləşdirilərək daha təkmil, müasir texnologiyalara əsaslanan sənaye sahələrinin yaradılmasından, çoxsaylı emal müəssisələrinin təşkil olunmasından ibarət olmuşdur [3, s. 5].

Malayziya təcrübəsində dayanıqlı inkişafı təmin edən ən vacib parametrlərdən biri də ixracyönümlü emal sənaye sahələrinin inkişaf etdirilməsi olmuşdur. Bu sahənin inkişafı ötən əsrin 70-80-ci illərindən daha vüsətlə başlamışdır. Bu istiqamət iqtisadiyyatın dayanıqlığını təmin edən bazis şərti kimi çıxış etmişdir. Məhz bu istiqamətdə fəaliyyətin daha genişləndirilməsi məqsədi ilə hökumət 1968-ci ildə ölkədə “İnvestisiyaların Təşviqi Aktı”nı qəbul etmişdir. Hüquqi-normativ bazanın belə möhkəmləndirilməsi ixracyönümlü şirkətlərə külli miqdarda investisiya və kapital axınlarını təmin etmişdir.

Ölkədə dayanıqlı inkişafın daha da etibarlı, dayanıqlı və davamlı xarakterə malik olmasının əsas səbəbi hökumət tərəfindən bir sıra digər vacib məsələlərin reallaşdırılmasından ibarət olmasından ibarətdir. Hər iki istiqamətdə çoxsaylı tədbirlərin həyata keçirilməsi bu ölkəni dayanıqlı inkişaf konsepsiyasının reallaşdırılmasında qabaqcıl ölkələrdən birinə çevirmişdir.

Həmin istiqamətdə aparılan tədbirlər çərçivəsində 2010-cu ildə Malayziyada daha bir vacib inkişaf proqramı qəbul olunmuşdur. Bu, iqtisadi inkişafın sürətləndirilməsini təmin edən İqtisadi Transformasiya proqramıdır [4, s. 1].

Geniş əhatəli problemlərin həllini nəzərdə tutan bu sənəddə iqtisadiyyatın 12 sektoru üzrə dinamik inkişafın təmin edilməsi məsələləri öz əksini tapmışdır. Bu sənəddən irəli gələn tələblərin icra edilməsi həm inkişaf üçün məhsuldar mühit yaratmış, həm də sahələrdə rəqabətqabiliyyətliliyin yüksəlməsini təmin etmişdir. Qeyd olunan nəticələrin əldə olunması üçün iki mühüm istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirilmişdir. Bunlardan birincisi iqtisadiyyatın sahələrinin inkişafı üçün dövlət tərəfindən dəstəyin gücləndirilməsi, ikincisi isə ölkəyə transmilli şirkətlərin cəlb olunmasından ibarət olmuşdur.

Bu məqsədlə hökumət 10 milyard dollar vəsait ayıraraq, ölkənin ayrı-ayrı regionları arasında dəmiryol infrastrukturunu yaratmışdır [5, s. 21].

Eyni ilə bu istiqamətdə fəaliyyətin genişləndirilməsi üçün qonşu dövlət olan Sinqapur ilə də dəmir yolları şəbəkəsi yaradılmışdır. Bu isə iqtisadi inkişafın təmin olunması üçün daha bir mənbə yaratmışdır.

Təcrübəsi öyrənilən ölkədə dayanıqlı inkişafın təmin edilməsi məqsədilə bu prosesə demək olar ki, bütün sahələr, o cümlədən kənd təsərrüfat, sənaye, ticarət, turizm, maliyyə xidmətləri, təhsil, sahibkarlıq fəaliyyəti, səhiyyə, elektronika, kommunikasiya, elm, təhsil, və s. cəlb olunmuşdur. Təhlillər göstərir ki, bu ölkədə 2021-ci ilin sonuna kimi dayanıqlı inkişafın təmin edilməsi istiqamətində nəzərdə tutulan tədbirlər 85% yerinə yetirilmişdir.

Malayziya təcrübəsi göstərir ki, ölkədə dayanıqlı inkişafın təmin edilməsinin daha da etibarlı olması üçün zəif inkişaf etmiş ərazilərin inkişaf etdirilməsi vacib məsələlərdəndir. Bu məqsədlə həmin ərazilər arasında iqtisadi dəhlizlər yaradılmışdır. Bu dəhlizlər vasitəsilə regionların inkişaf səviyyələri arasındakı fərqi aradan qaldırmaq məqsədilə əsaslı vergi güzəştləri həyata keçirilmişdir.

**Dayanıqlı inkişafın təmin edilməsinin Norveç təcrübəsi**

Dayanıqlı inkişaf konsepsiyasına qoşulan və bu sahədə yüksək səviyyədə uğurlar əldə edən ölkələrdən biri də Norveçdir. Bu ölkə dayanıqlı inkişafı təmin etmək məqsədilə 1969-cu ildən başlayan neft siyasətindən çox səmərəli şəkildə istifadə etmişdir. Aparılan düzgün iqtisadi siyasət nəticəsində hal-hazırda bu ölkənin strateji valyuta ehtiyatları 1 trilyon 250 milyard dolları ötmüşdür. Lakin valyuta ehtiyatlarının çoxluğuna baxmayaraq bu ölkədə neft vəsaitlərindən yüksək dərəcədə səmərəli şəkildə istifadə edilir.

Norveç təcrübəsini təhlil edərkən görürük ki, ötən əsrin 60-70-ci illəri ərzində bu ölkənin iqtisadiyyatında yaranan vəziyyət ölkədə dayanıqlı inkişafı təmin etmək zərurətini vacib bir vəzifə kimi qarşıya qoymuşdur. Bu zərurəti yaradan problemlər aşağıdakılardan ibarət olmuşdur: ölkə iqtisadiyyatının aparıcı sahələrində tətbiq edilən maşın, mexanizm, texnika və texnologiyaların həddən artıq baha olması; sənaye sektorunda baş verən geriləmələr nəticəsində iqtisadi dinamikanın zəifləməsi; əməyin ödəniş səviyyəsinin çox yüksək olması; əmək fəaliyyəti ilə məşğul olan əhalinin sosial müdafiəsi xərclərinin çox yüksək səviyyədə olması; yaranmış kataklizmlər nəticəsində məşğulluq səviyyəsinin zəifləməsi; məşğulluq səviyyəsinin aşağı düşməsi fonunda vergi yükünün yüksək olması; yaranmış problemlər fonunda iqtisadiyyatın investisiya mühitinin əlverişli olmaması və s. [6, s. 3].

Norveçdə neft-qaz sənayesinin inkişafı ölkə iqtisadiyyatında bəzi mənfi meyillərin yaranmasına təkan vermişdir. İqtisadiyyatın bu sahəsi digər sahələrdə nisbətən cəlbedici olduğuna görə buraya investisiya qoyuluşları artmış, bu sahəyə peşəkar mütəxəssislərin toplanması güclənmiş, bu sahədə güclü artım dinamikası qeydə alınmışdır. Bütün bu meyillərin meydana gəlməsi “Holland sindromu”nu gücləndirmiş, iqtisadiyyatın digər sahələri zəifləmişdir.

Hökumət dayanıqlı inkişafı təmin etmək, iqtisadiyyatın tarazlı inkişafını bərpa etmək üçün bir sıra mühüm vəzifələrin həll olunmasını təxirəsalınmaz tədbir kimi qarşıya qoymuşdur. Bu tədbirlərə aşağıdakıları aid etmək olar: dayanıqlı inkişafın təmin edilməsində mühüm rola malik olan insan kapitalının sürətlə inkişaf etdirilməsi; iqtisadiyyatın bütün sahələri üçün tələb olunan keyfiyyətə malik olan yüksək səviyyəli kadrların hazırlanması; iqtisadiyyatın sahələrinin xarici mütəxəssislərin müdaxiləsindən azad edilməsi; ölkədə yerli istehsal sisteminin təkmilləşdirilməsi, sürətli inkişafının təmin edilməsi və s. tədbirlər nəticəsində ölkə iqtisadiyyatının idxaldan azad edilməsi; yerli sənaye istehsalının əhalinin tələbatını ödəyə biləcək səviyyəyə çatdırılması; əhalinin sağlamlığının qorunmasının iqtisadi siyasətdə prioritetə çevrilməsi; səhiyyə sistemində yeni texnologiyaların tətbiq olunması vasitəsilə əhalinin sağlamlıq səviyyəsinin yüksəldilməsi; əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiə problemlərinin sürətlə həll edilməsi; ölkədə daxili investisiya qoyuluşları həcminin sürətlə artırılması üçün zəruri şəraitin yaradılması; elm və tədqiqat sahələrində maliyyələşməni gücləndirmək vasitəsilə sürətli inkişafın təmin edilməsi; ölkədə təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması; ölkə iqtisadiyyatında ölkələrin bərabər və tarazlı inkişafını təmin etmək məqsədilə mərkəzləşdirilmiş əməkhaqqı sisteminin yaradılması və

bu vasitə ilə sahələrin hamısında əməkhaqqı səviyyələrinin bərabər parametrlərə uyğunlaşdırılması və s. [2, s. 31].

Norveçdə dayanıqlı inkişafı daha da etibarlı şəkildə təmin etmək məqsədi ilə 1990-cı ildə Dövlət Pensiya Fondu yaradılmışdır. Bu fondun funksiyası neft gəlirlərindən daha səmərəli istifadə etməkdən ibarətdir. Bu ölkənin təcrübəsinə görə dayanıqlı inkişafı səmərəli formada reallaşdırmaq məqsədi ilə bu fondun vəsaitləri ən zəruri olan aşağıdakı sahələrə yönəldilir: dayanıqlı inkişafın daha da möhkəmləndirilməsini təmin edə bilən uzunmüddətli strateji layihələrin reallaşdırılmasına, yeni iş yerlərinin açılmasına, məşğulluq səviyyəsini artıra bilən yeni texnika və texnologiyalara əsaslanan istehsal sahələrinin yaradılmasına, ixracyönümlü məhsul istehsalının genişləndirilməsinə, əhalinin sosial təminatının gücləndirilməsinə, gələcək nəslin normal həyat səviyyəsini təmin edəcək tədbirlərin həyata keçirilməsinə, insan kapitalının daha da inkişaf etdirilməsinə və s.

Norveç təcrübəsinə əsasən qeyd edilən fondun fəaliyyəti dayanıqlı inkişafın təmin edilməsini əsas prioritet kimi qəbul etməklə əsasən aşağıdakı məqsədlərini həyata keçirir: 1) neft məhsullarının satışından əldə edilən vəsaitlərin iqtisadiyyatın sahələrinə birbaşa daxil olmasının dayandırılması; 2) həmin vəsaitlərin vahid fondda toplanmasının təmin edilməsi və yalnız iqtisadi zərurət yarandıqda onların büdcəyə transfer edilməsinə icazə verilməsi; 3) neftin satışından əldə edilən vəsaitlərin istənilən sahə və istiqamətdə yalnız investisiya şəklində qoyulması; 4) iqtisadiyyatda yarana biləcək risklərin minimallaşdırılması üçün fondun vəsaitlərindən səmərəli istifadə edilməsi; 5) ölkə iqtisadiyyatında dayanıqlı inkişafın etibarlı formada təmin olunması üçün fondun vəsaitlərinin xərclənməsinin müstəsna olaraq ölkə Parlamentinin qərarına əsasən reallaşdırılması [8, s. 164].

Dayanıqlı inkişafın təmin edilməsinin Norveç təcrübəsi göstərir ki, bu istiqamətdə həyata keçirilən bütün tədbirlər ölkə iqtisadiyyatının bütün sahələrinin paralel olaraq eyni səviyyədə inkişaf etdirilməsini, neft və qaz kompleksindən asılılığın azaldılmasını özündə əks etdirir. Məhz bu məqsədi özündə ehtiva edən xüsusi sənəd də qəbul olunmuşdur. Bu sənəd 1970-ci ildə Norveç Parlamentinin Enerji Məsələləri üzrə Komitəsinin “Neft-qaz sənayesinin prinsipləri” adı altında qəbul etdiyi sənəddir [7, s. 35].

Bu sənəddə əks etdirilənlərin əsas mahiyyəti dayanıqlı inkişafın etibarlı şəkildə təmin olunması üçün vacib məsələlərin icra olunmasından ibarətdir. Həmin məsələlərə aşağıdakılar aiddir: iqtisadiyyatın aparıcı sahəsi olan neft-qaz kompleksinin inkişafı iqtisadiyyatın digər sahələrinin geri qalmasına şərait yaratmalıdır, bu sahənin inkişafı qeyri-neft sektorunun sürətli inkişafını şərtləndirməlidir. Bu məqsədlə dayanıqlı inkişafı təmin etmək üçün elə iqtisadi siyasət aparılmalıdır ki, sahə və sektorlarda həm üfüqi, həm də şaquli istiqamətdə sürətli inkişaf təmin edilsin.

## ***Nəticə***

Dayanıqlı inkişafın təmin edilməsinin öyrənilməsinin dünya təcrübəsi göstərir ki, bu proses çoxsaylı iqtisadi faktorların və şərtlərin mövcud olduğu halda reallaşır. Məhz bu faktı nəzərə alaraq belə bir fikir söyləmək olar ki, istənilən ölkədə dayanıqlı inkişafın təmin edilməsinin etibarlı olması üçün həm siyasi, həm iqtisadi, həm hüquqi, həm sosial, həm təşkilati, həm xarici, həm daxili və s. amillərin təsiri nəzərə alınaraq bu istiqamətdə düzgün fəaliyyət mexanizmi müəyyən edilməlidir.

Dünya təcrübəsi göstərir ki, bütün ölkələrdə dayanıqlı inkişafın təmin edilməsi prosesi həm çətin, həm də mürəkkəb bir prosesdir. Məhz bu parametri nəzərə alaraq dövlətlər bu prosesi daimi olaraq öz nəzarətində saxlayır, zəruri hallarda prosesə müdaxilə edərək müxtəlif qərarlar qəbul edirlər. Həmin qərarlar iqtisadi, hüquqi, təşkilati və s. xarakterlərə malik olurlar.

Qeyd edilən prosesə dövlət müdaxiləsi bu prosesin düzgün təşkil edilməsinə, strategiya və texnikanın zərurət üzrə seçilməsinə, prosesin düzgün tənzimlənməsinə səbəb olur. Proses üzrə nəzərdə tutulan tədbirlərdə kənarlaşmalar baş verdikdə dövlət dərhal müdaxilə edərək prosesə düzəlişlər verir, prosesi normal vəziyyətə gətirir.

Dayanıqlı inkişafın təmin edilməsinin Norveç və Malayziya təcrübəsinin öyrənilməsi göstərir ki, hər iki ölkədə bu proseslə bağlı müsbət meyillər çoxdur. Həmin meyillərin metodoloji məsələ-

lərinin tətbiq mexanizmlərinin dərindən öyrənilməsi, həmin müsbət meyillərin bu və ya digər ölkədə tətbiq edilməsi ilə bağlı olaraq qərarlar verilməsi ölkələrin inkişafında səmərəli nəticələrin əldə edilməsinə səbəb ola bilər.

## ƏDƏBİYYAT


1. Bağırov O.M. "İqtisadiyyatın diversifikasiyası və onun maliyyə səmərəliliyinin qiymətləndirilməsi" mövzusunda 53.01.01.-"Daxili fiskal siyasət və dövlət maliyyəsi" ixtisası istiqamətində iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya. Bakı, 2021. 145 s.
2. Bayramov V.İ. "Azərbaycanda iqtisadiyyatın diversifikasiyasının maliyyə təminatının gücləndirilməsi məsələləri" Bakı. "Qanun" nəşriyyatı 2019. 352 s.
3. Mohammed B.Y., Fauziah A.H., Suhaila A.J. Globalization, economic policy, and Equity: The Case of Malaysia. OECD, 2000
4. Cheng F.F., Tan K.F., Cheng S.V. Impact Of The News Of Economic Transformation Programe On Various Sectors In Malaysia Stock Market, University Putra Malaysia, 2013.
5. British Malaysian Chamber Of Commerce. Doing Business in Malaysia 2017 / 2018. Unlocking Opportunities. BMCC, 2017.
6. Birləşmiş Millətlər Təşkilatının İqtisadi Əməkdaşlıq və İnkişaf təşkilatlarının hesabatları. 126 s.
7. Alamen Y.M.M. "The Norvegian Oil Experience of Bamic Diversification: A Comparative Study with Gulf", European Journal of Business and Management Vol 8, №15, 2016, 94-101.
8. Шваков Е.Е., Дутова Т.И. Диверсификация развития региональной экономики на основе использования ее социальной инфраструктуры, 2014.


***Орман Таминха оглы Абдинов***
***докторант - Азербайджанский Государственный***
***Экономический Университет***
***E-mail: orman.abdinov@yahoo.com***

## Мировой опыт обеспечения устойчивого развития

***Резюме***

**Цель исследования-**Изучение передового опыта обеспечения устойчивого развития в нескольких странах мира.

**Методология исследования-**Анализ методов обеспечения устойчивого развития в изучаемых странах.

**Важность применения исследования** – применение положительных тенденций, полученных в результате исследования, в будущем в экономике нашей страны приведет к ускорению процесса обеспечения устойчивого развития.

**Результаты исследования -** положительные тенденции, предложенные в направлении устойчивого развития, дадут большой толчок данному процесу и ускорят динамическое развитие.

**Оригинальность и научная новизна исследования -** вопросы, рассматриваемые в исследовании, в частности процесс применения опыта изучаемых стран в обеспечении устойчивого развития нашей страной являются новшеством.

***Ключевые слова: устойчивое развитие, мировой опыт, инвестиционные потоки, опыт Малайзии, опыт Норвегии.***

***Orman Taminxa Abdinov***
***Azerbaijan State Economic University (UNEC), doctoral student***
***E-mail: orman.abdinov@yahoo.com***

**The world experience in ensuring Sustainable Development**

***Summary***

**The purpose of the study -** It consists of studying the advanced practice of ensuring sustainable development in several countries of the world.

**The research methodology -** Studying the methods of ensuring sustainable development in the countries whose experience is studied.

**The applied importance of the research -** It consists in accelerating the process of ensuring sustainable development through the application of the positive trends obtained as a result of the research in the economy of our republic in the future.

**The results of the study -** The positive trends proposed in the direction of ensuring sustainable development will give a high level impetus to the mentioned process in the republic's economy, and will accelerate dynamic development.

**Originality and scientific novelty of the research -** The application of the experience of the countries mentioned in the study in the economy of our country was studied by us for the first time, and the obtained results are new.

***Key words: sustainable development, world experience, investment flows, Malaysian experience, Norwegian experience.***